YAXIN, UZAQ ÖLKƏLƏRDƏ

TÜRKÜLƏR

Sular büründü fosfora,
Baxın, ilahi vəsf ora!.
Səmavi, mavi Bosfora
Yaxınlaşınca ürkülər,
Bu türkülər nə türkülər!

Bu sahilin küləkləri
Oyandırır dilәkləri,
Güləndə türk mələkləri,
Könül gülər, ömür gülər,
Bu türkülər nə türkülər!

Efirdədir Könül Yazar,
Səsində titrər intizar,
Açar sularda laləzar,
Gedər yabançı bürkülər,
Bu türkülər nə türkülər!

Çağıldayır qopuzla ud,
Qopuzla ud – ulusla yurd.
Ularsa dağ başında qurd,
Donar gədikdə tülkülər,
Bu türkülər nə türkülər!

Bu yol ərənlərin yolu,
Həyat dolu, işıq dolu,
Bu yerdə duyğular ulu,
Düşünməyin ki, türk ölər,
Bu türkülər nə türkülər!

Boğaz, 1984

ULU FATEH CAMESİ

Tağlarına süslənib naxışların naməsi,
Dikilmiş bir şeirdir, uzundur həngaməsi

Əzan səsləri altda içinə varan kimi
Dışında türk tarixi canlanır ekran kimi.

Beşyüzillik zəfər var torpatında, daşında,
Ulus durub Fatehin türbəsinin başında.

Səmavi bir abidə, ulduzlardan qopubdur,
Bütün gözəl sənətlər varlığına hopubdur.

Daşlaşmış musiqidir ulu Fateh camesi,
İstanbulu seyr edər başında əmmaməsi...

İstanbul, 1987

OLMAZ

Bəy ola, kürkü olmaya, olmaz,
Yay ola, bürkü olmaya, olmaz,
Hay ola, tülkü olmaya, olmaz,
Vay ola, ürkü olmaya, olmaz,
Toy ola, türkü olmaya, olmaz!

Ankara, 1987

QASIRĞALAR

Qanadlanan bu dalğalar
Gümüş qanadlı yorğalar.

Bu dalğalar qayıqları
Ha çalxalar, ha yırğalar.

Nədir bu çırpınış, nədir,
Bu qovğalar nə qovğalar?!

Bu çağlayışda qorxudan
Durur kənarda qarğalar.

Bu vurhavurda üzməyi
Balinalar yadırğalar.

Balıqlarınmı ahıdır
Suyun üzündə halqalar?!

Bu halqalar zaman-zaman
Olur qulaqda sırğalar.

Qasırğalar açılmasa
Dənizdə bir qüsur qalar.

Dənizlərin büsatıdır
Aşıb-daşan qasırğalar!..

İstanbul, 1984

İSTANBULA DOĞRU

Dağ kimi dalğaları aşdı "Azərbaycan"ımız,
Səkkiz ölkəylə vidalaşdı "Azərbaycan"ımız.

Neçə iqlim, neçə dövlət, neçə millət gördük,
Nə əziyyət, nə müsibət, nə fəlakət gördük.

Bu uzun yolçuluğumdan da uzundur bu gecə,
Bu gecə gündüzə oxşar, bu gecə nurlu gecə.

Ağ dəniz sanki alıb qoynuna yüz məmləkəti,
Kəhkəşanlar kimi parlar bu dəniz səltənəti.

Bu üfüqlər, bu şəfəqlər bu işıqlar yoludur,
Sirli aləmdə bir aləmdə ki, aləm doludur.

Yol boyu qüvvət alır bizdən "Azərbaycan"ımız
Varacaq Türkiyəyə tezdən "Azərbaycan"ımız.

Dan yerindən doğacaqdır bu sabah İstanbul,
Dəniz altımda, göy üstümdə, üfüqlər məchul.

Hamı yatmış, mən oyaq, dalğalar, ulduzlar oyaq,
Bir dəniz türküsü şəklində əsən ruzgar oyaq.

Bu gecə başqa gecə, səksəkəli, mərəkəli,
Gəmimiz daima getməkdə inamla irəli.

Bu nə boşluq, sonu yox, yox duya bilməm onu, yox,
Dənizin də, üfüqün də, gecənin də sonu yox.

Ağ dəniz sirri qaranlıq gidi bir ümman ki,
Çırpınır varlığı sonsuzluğa doğru sanki.

Boşluğa, yoxluğa daldıqca xəyalım darılır,
Varlığım yoxluğa varmış kimi bağrım yarılır.

Çırpınışlarla qoşan dalğaların ahəngi,
Hayqırışlarla coşub dalğalanan bir cəngi.

Kim deyir dalğalar ümmanda axan adi sudur,
Bəlkə onlar ulu sancaqlı zəfər ordusudur.

Duyuram çınlayan at nallarının səslərini,
Kişnəyir parçalayıbmış kimi məhbəslərini.

Söyləyir arş, irəli! Dalğaların odlu səsi,
Uçurur könlümü İstanbulu görmək həvəsi.

Sən ey əfsanə Bizansın gözü Konstantinopol,
Qucağından açılır Asyadan Avropaya yol!

Səni bir-bir talayanlar sovuşub tərk etdi,
Sarılıb boynuna türk oğlu səni türk etdi.

Həsrətindir dəli könlümdə, bu çırpıntı nədir?
Yaşadır eşqini türk beş yüz otuz bir sənədir.

Musiqin dadlı, dilin doğma, adın qüdrətli,
Atatürkün yer üzündə əbədi şöhrətli!

Sən bu dünyada bu dünyaya bədəl bir dünya,
Sabah ömrüm görəcək gerçək olan bir röya!

Duyğular dalğalı sellərtək aşıb-daşmaqda,
Dalğa-dalğa həyəcanlarla axınlaşmaqda.

Yol uzanmış, ən uzun gündən uzundur bu gecə,
Sənə həsrətlərin ömründən uzundur bu gecə.

Boğaz, 1984

BOĞAZ KÖRPÜSÜ

Bu gün İstanbulda açdıq səhəri,
Umulmaz incilər yerləşir onda.

İstanbul dünyanın gözəl şəhəri,
Asiya, Avropa birləşir onda.

Görəsən bu yerdə boş avazların
Köpürə-köpürə köpü yatarmı!?

Boğazı qurusun boşboğazların,
Boğaz körpüsünə körpü çatarmı?!

Dayandım körpünün ortasında mən,
Açdım qollarımı iki qitəyə.

Göründüm türklərin arasında mən,
Göz qoyub xəyalı bir xəritəyə.

Zaman qarşısında üfüqlənmədə,
Canlı muzey kimi Boğaz körpüsü,

Boğaz üzərində şəfəqlənmədə
Qövsü-qüzey kimi Boğaz körpüsü.

İstanbul, 1984

HEYKƏLİ ÖNÜNDƏ

Türk qeyrətinin rəmzi bu heykəl
Məşəldir ömürlük bizə, məşəl!
Zor zirvəsinə əl çata Türkün,
Vicdanı günəşdir Atatürkün!
Türk milləti eylər ona səcdə,
Bir vəcdə gəlir ruhuma vəcdə!
Ey Türk, ulu görkün Atatürkdür,
Peyğəmbəri Türkün Atatürkdür!

İstanbul, 1984

RUMELİ HİSARINDA

Şairlər uyumaqda Rumeli hisarında,
İstanbul bir şeirdir Hamid intizarında.

TÜRK ÇOCUĞU

İstanbulda bir çocuqla konuşdum,
Elə bildim, Xəndanıma qovuşdum,
Adın, soyun, soyadın nə, soruşdum.
Mən Ərol Ərkəm dedi,
Soyadım Ötkəm dedi,
Babam türkdür, anam türk,
Türk oğlu türkəm dedi.

Yeddi-səkkiz yaşı vardı Ötkəmin,
O sözləri şimşək kimi ötkəmin,
Dedim: igid görkəmidir görkəmin!
Bu milli görkəm dedi,
Ərlərə görkəm dedi,
Arxadan vurulmayan
Türk oğlu türkəm dedi.

Dedim: oldum obaların məhrəmi,
Bir aləmdir İstanbulun aləmi,
Topqapını top dağıtmaz, öyləmi?!
Topqapı möhkəm dedi,
Çətin mən ürkəm dedi,
Qorxu yoxdur gözümdə,
Türk oğlu türkəm dedi.

Dedim: neçin ay-ulduzu yurdunun,
Bayrağına ayna tutub ordunun,
Nə deməkdir tarixində qurd onun?!
Tarixdə ilkəm dedi,
Uludur ölkəm dedi,
Atatürkün oğluyam,
Türk oğlu türkəm dedi.

1984

AZƏRBAYCANDAN AYRI

Dünyanın üç qitəsində olmuşam,
Afrikada, Avropada, Asyada,
İtaliyada, İspaniyada qalmışam,
Dolaşmışam Fransada, Maltada.

Tunis gözəl, Yunanıstan gözəldir,
Türkiyə də yaraşıqlı, bəzəkli,
Vatikanın əzəməti əzəldir,
Manako da bir ölkədir özəkli!

Hər səfərim, bir röyadır mənimçin,
Yurddan ayrı gerçəkmidir o röya?!
Azərbaycan bir dünyadır mənimçin,
Azərbaycan dünyasıdır bu dünya!

* * *

Qaranlıq çəkilərkən üstünə yorğan kimi,
Bir də baxdım dan yeri söküldü yarğan kimi.

Minbaşlı əjdahatək şaxlandı Qara dəniz,
Səsləndi kainata nohəng bir orğan kimi.

Dedim, gəzir doğmalar doğma sahillərində,
Yabançılar çıxmasın qarşına darğan kimi.

Hər sənlə olanda könül pərişan olmur,
Hər dalğan cilovlanır qanadlı yorğan kimi.

Efirdə dalğalanır Qara dəniz türküsü,
Radionun dalğası açıqdır dalğan kimi.

Ruhuna yasaqları sənə baxan görüncə,
Hisslərim içərimdə coşur burulğan kimi.

Sürəkli qovğam mənim sənin qovğana bənzər,
Mənim qovğam da bitməz sürəkli qovğan kimi.

Çağlayan qanım sənin sularına qaynayır,
Dəli könül çırpınır dəli qasırğan kimi!

İstanbul, 1984

İSTANBUL

Səni görməkçin, inan ki, bir ömür yol gəldim,
Yaşadım daima sevginlə, gözəl İstanbul!

Səni gördükdə çocuqtək nə qədər kövrəldim,
Gəl basım bağrıma candan səni gəl, İstanbul!

Min ömür, məncə, bu aləm dolu sevdaya dəyər,
Uğradım qoynuna könlüm kimi xoş vaxtında.

Bir şəhərsən ki, gözəllikləri dünyaya dəyor,
Yaradan sanki yaratmış səni boş vaxtında!

Səni türk eylədi türkün qulu Mehmet Fateh,
Qovuşubsan duru bir ovqata, türkün şəhəri!

Söyləyim, inciməsin, qoy, ulu Mehmet Fateh,
Atatürkün gözüsən, ey Atatürkün şəhəri!

Türklərin varlığısan, mənliyisən dünyada,
Türkülərdir yaşadan ruhumu beş yüz sənədir!

Olmamışdım hələ gerçəkdə olan röyada,
Bu nə əfsanələşən ənənədir, təntənədir?!

Sən hara, mən hara? Eşqinlə şaşırmış kimiyəm,
Adladım yeddi təpəndən, böyük aləmsən son!

Göylərin yeddi qatında dolaşırmış kimiyəm,
Necə doğma, necə munis, necə məhrəmsən son!

Mavi camelərin üstündə işıldar fosfor,
Şəfqətiylə ulusun daima ruhun çağlar.

Çırpınan dalğalarıyla səni səslər Bosfor,
Bir daha basmaz ayaq torpağına alçaqlar!

Bir gözəlsən ki, yabançı əli yox boynunda,
Qüllələr düşməninin bağrını dəlmiş oxdur.

Varlığın sirləridir saxlanılan qoynunda,
Səndə yox söylənilən, yox denilən şey yoxdur!..

İstanbul, 1984

ÇƏKMƏÇI ÇOCUQ

İstanbulda bir çocuq
Çəkməçiyə rastladım,
– De, adın nədir çocuq?
– Türkay Ərəndir adım.

– Bir türkü söylərmisən?
– Bilmədiyim türkü yox!
Söyləsəm bilərmisən?
Gördüm onda ürkü yox.

Bu zaman bir yabançı
Çəkməsini uzatdı,
Çöküb qəlbinə sancı,
Çocuq ona söz atdı:

Türk çocuğu yadların
Çəkmələrini silməz,
Yabançı övladların
Qarşısında əyilməz!

1984

QÜRBƏTDƏ

Qürbətdə uzun yolçuluğun zövqünə daldıq,
Bir ömrə dəyən günləri bir-bir yola saldıq.

Avropa gözəl, Asya əziz, Afrika dadlı,
Sevdalı könüllər nə qanadlı!

Bir başqa səfərdi o səfər, mutlu səfərdi,
Ünvan nə qədərdi!..

Saymaqla bitərmi o limanlar,
Anlar, əbədiyyət kimi anlar!

Ellər, gözəl ellər,
Ellərdə axıb dalğalanan nəğməli dillər.

Hər ölkəyə insan kimi getdik,
Aləmlərə meyl eylədik, aləmlər eşitdik.

İnsan kimi ömr eyləyən insan nə gözəldir,
İnsanlara insan kimi baxsan nə gözəldir!

Bir axşam Azərbaycana döndük gəmimizlə,
Güldük yenə aləmlə dolu aləmimizlə!

Elliklə ucaldıqca ucaldıq,
Aləm dolu yurdun, ulusun zövqünə daldıq!

1984

ULUSUM BÖYÜKDÜR, YURDUM BÖYÜKDÜR

Günəş görünsə də bir damla suda,
Ən dərin, ən böyük dəryaya sığmaz.

Yurd, ulus sevgisi qəlbə sığsa da,
Dünyadan genişdir, dünyaya sığmaz.

Dünya parça-parça, bölük-bölükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

Böyükdür o yurd ki, Odlar yurdudur,
Yaşayır, parlayır, neçə min ildir.

Bu yurdu ucaldan ulus ordudur,
Hər böyük görünən böyük deyildir.

Böyük var kiçiklər boynuna yükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

İrilər dəm vurur böyüklüyündən,
İrilər yanında mən neçin susum?!

Könül böyüklüyü duyduğu gündən,
Duyub ki, böyükdür yurdum, ulusum.

Ərənlər yolundan dönən dönükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

Ey mənim yurddaşım, ey ulusdaşım!
Ulus türküsüylə titrəyir ocaq.

Göylərə ucalır torpağım, daşım,
Alçalar ulusu duymayan alçaq.

Yurdu qanmayanın beyni çürükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

Nizami, Füzuli, Cavid, Üzeyir
Böyüklər gözündə böyük deyilmi?!

O kəs ki, qanmayır musiqi, şeir
Mənliyi qurumuş kötük deyilmi?!

Kötükdür duyğusu, hissi kötükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

Harda dilim varsa, orda elim var,
Sancılıb sancağım ora əlimlə.

Geniş ürəyim var, günəş dilim var,
Milyonlar aylanır günəş dilimlə.

Sönər o ulduz ki, nuru sönükdür,
Ulusum böyükdür, yurdum böyükdür!

İstanbul, 1984

AYIRMASIN

Ey yurdum, ey canım, gözüm, ey mənliyim mənim,
Ey yer üzündə mutluluğum, şənliyim mənim!

Seyr eylədim bu aləmi, gəzdim diyar-diyar,
Avropa, Asya, Afrika, sezdim diyar-diyar.

Gördüm ki, bir diyarda sənin yox bərabərin,
Duydum ki, könlümün gözüdür maviliklərin.

Ömrüm, günüm sənինlə gülər, sən həyat dolu,
Bəxt ulduzumsan, aynası bir kainat dolu.

Sən bir coşan dəniz kimi, bir damlanam sənin,
Sevgim, özüm, qızım, atam, oğlum, anam sənin.

Eşqinlə çırpınan ulusum varlığındadır,
Hər ziynətin şanı sənə oxşarlığındadır.

Kürlə Araz coşar sənin eşqinlə daima,
Bir türkü söyləyir sənə od, yer, hava, səma.

Parlar günəşlə, ayla Xəzər, ay canım mənim,
Aləmdir aləmin, ay Azorbaycanım mənim!

Sənsiz, nə bayram olsa, olar eyni bir yasın,
Tale zaman-zaman məni səndən ayırmasın!..

İtaliya, 1984

AZƏRBAYCAN CAHANDIR

Cahana bələdəm mən, mən cahanı gəzmişəm,
Doğmalarla olmuşam yadlar ölkəsində mən.

Asyanı, Avropanı, Afrikanı gəzmişəm,
Röyada dolaşmışam Odlar ölkəsində mən.

Mənim cahanda gözüm, canım bu kəhkəşandır,
Oymaq-oymaq gəzmişəm mən bu kəhkəşanımı.

Azərbaycan gözümdə, könlümdə bir cahandır,
Cahana dəyişmərəm bu nurlu cahanımı.

İstanbul – Bakı, 1984

QARA DƏNİZ TÜRKÜSÜ

Soraqlar axınlaşar,
Sənin dalğalarınla,
Uzaqlar yaxınlaşar
Sənin dalğalarınla.

Əzəlim Qara dəniz,
Gözəlim Qara dəniz,
Üzəlim, Qara dəniz,
Sənin dalğalarınla.

Sənin dalğalarınla
Könüllər vəcdə gələr,
Ellərə müjdə gələr.
Sənin dalğalarınla.

Kim səni candan istər
Ona ruhunu göstər,
Dağılsın qara sislər
Sənin dalğalarınla.

Sənin dalğalarınla
Sənin kimi dolmuşam,
Sənli-mənli olmuşam
Sənin dalğalarınla.

Dərdi unutmaq olar,
Qəlbi ovutmaq olar,
Dünyanı tutmaq olar
Sənin dalğalarınla.

Afina, 1984

CƏFƏR XƏNDAN

Türklərlə can deyib, can eşidərdi,
Hər sözü candandı Cəfər Xəndanın.

Türklüyü səslərdi könül türküsü,
Türklüyü qandandı Cəfər Xəndanın.

İnanc bayrağının ulduzu, Ayı
Sökülən dandandı Cəfər Xəndanın.

Türk oğlu türk idi, bütün varlığı
Dindən, imandandı Cəfər Xəndanın.

Soyu xan soyuydu, dədəsi xandı,
Soyadı "Xandandı" Cəfər Xəndanın.

Mənliyi, ilhamı, ürəyi, canı
Azərbaycandandı Cəfər Xəndanın!

1971

YARPAQLARI DÜŞƏN SÖYÜD

Yaman düşüb, nə düşünür
Yarpaqları düşən söyüd!?
Bir ürək kimi üşünür
Budaqları şişən söyüd.

Son kan bahar gələndən bəri,
Açılmaz könül dəftəri,
Bir sümük olub, bir dəri
Yapışıqlı, qəşəng söyüd.

İçindəki duyğuları
Sudan duru, aydan arı,
Unudub gümüş suları
Sularla öpüşən söyüd.

Bağrının başında yara,
Qəlbini çəkirlər dara,
Uğrayıb bir intizara,
Nə qəmlidir o şən söyüd.

Quşlar uçub gəlməz oldu,
Ovqatını bilməz oldu,
Dinməz oldu, gəlməz oldu
Soyuqdan büzüşən söyüd.

İstanbul, 1984

ÇAĞLAYA-ÇAĞLAYA

İnsan oğlu bu dünyaya
Gələr ağlaya-ağlaya,
Yaşayar Günəşə, Aya
Umud bağlaya-bağlaya.

Açıb-solar güllər kimi,
Nəğmələnər tellər kimi,
Qayğıları sellər kimi
Axar çağlaya-çağlaya.

Diləkləri, duyğuları
Sudan duru, Aydan arı,
Fəsillər keçər, baharı
Soraqlaya-soraqlaya.

Bilən yox biləcəyini,
Gözləyər gələcəyini,
Düşünər öləcəyini
Köküs dağlaya-dağlaya.

Bir gün solar ömür bağı,
Saralar gülü, yarpağı,
Torpağa dönər, torpağı
Qucaqlaya-qucaqlaya.

Sofiya, 1987

İÇDƏN GƏLƏN SƏSLƏR

Könül sözlüyümdə ulus sözləri,
Oxşayır yurdumla gülən gözləri,
Açıq alınları, ağ bənizləri
Türklüyə səsləyir sözlüyüm mənim.

Türkü çağıraram ana dilimdə,
Dinləsin doğmalar doğma elimdə,
Şimşəkdən qələmdir mənim əlimdə
Gerçəksevərliyim, düzlüyüm mənim.

Burax, yabançılar qınasın məni,
Ərdəmli oğullar tanısın məni,
Sınaqdan çıxanlar sınasın məni.
Üzümdə olmayıb üzlüyüm mənim.

Çocuqkən duymuşam yurd, ulus nədir,
Dədə Qorqud nədir, ud, qopuz nədir,
Saz nədir, türkü nə, ay-ulduz nədir,
Günəşdir gözümdə gözlüyüm mənim.

Kim bugün ağlayır o, bir gün gülər,
Alçaqlar bağrını dələr süngülər,
Bilir öz yurdumda özümünkülər,
Bir özgə aləmdir özlüyüm mənim.

Buxarest, 1989

AĞ DƏNİZDƏ

Oldum bir ay Ağ dənizdə, Xəndan,
Qaldım gidi dalğalarla dalğın.
İnsan kimidir dəniz də, Xəndan
Gah mutlu olur o, gah da darğın.

SARI GƏLİN TÜRKÜSÜ

Sarı gəlin türküsü
Bir gözəllə bir küsü...

Sarı gəlin türküsü
Sarı simin ürküsü.

Səslənincə sovuşur
Ayrılığın bürküsü.

Bu türkü bir sevginin
Duyğularla hörgüsü...

Sarı gəlin türküsü
Çiçəklərin mürgüsü.

"Bizim türküdür" deyir
Bir dərənin tülküsü...

İstanbul, 1984

QÜRBƏT ELLƏRDƏ

Azərbaycan dünyada olan dünyadır mənə,
Dünyanın səfasını mən bu dünyadan aldım.

Bu səfanı, dolaşdım dünyanı dönə-dönə,
Nə İtaliyada gördüm, nə İspaniyadan aldım.

Bu səfa nə Avropa, nə Asya, nə Afrika
Ölkələrində olar, bu yurdun səfasıdır!

Bu yurdun səfasıdır, yurdun, ey Rəfiq Zəka,
Qürbət ellərdə qalmaq cəfalar cəfasıdır!

Malta, 1984

TÜRK GÖZƏLİ

Qaplan dərisindən geyinib kürk,
Ceyran kimi qızdır o gözəl türk.

Heyranmı olub qaplana ceyran?
Qaplanmı olub ceyrana heyran?!

Bir nəşə saçan qəmdir o gözlər,
Aləmdə bir aləmdir o gözlər.

Ceyranmı o qız, qızmı o ceyran?!
Qaplan kimi qansızmı o ceyran?!

Ceyran kimi qaplanmı o, bilməm,
Qaplan kimi ceyranmı o, bilməm!

Ceyran kimi qızdır o gözəl türk,
Qaplan dərisindən geyinib kürk.

Bir qaplanı soymuşmu o ceyran?
Ah, olmamaq olmaz ona heyran!

Ceyran kimi baxmaqda o qaplan,
Qaplan kimi yaxmaqda o ceyran.

Qaplan dərisindən geyinib kürk,
Ceyran kimi qızdır o gözəl türk!

Ankara, 1987

BU MƏMLƏKƏT

Ustad Şamil Güvənə

Ərdəmlidir bu məmləkət,
Hər bucağında bərəkət.

Gördüm igid ərənləri,
Yurda könül verənləri.

Tanıdım böyük ulusu,
Ölən deyil Türk ulusu!

Qorxusu yox alçaqlardan,
Quduzlardan, daşnaqlardan.

Qüdrətlidir Türk oğlu Türk,
Qeyrətlidir Türk oğlu Türk!

Davulu duy, qopuza bax,
Aya boylan, ulduza bax!

Ulu türkün bayrağıdır,
Ulu türkün torpağıdır!

Ulu Türkün varlığıdır,
Atatürkün varlığıdır!

Bu məmləkət Türkiyədir,
Türkiyəyə Türk yiyədir!..

İstanbul, 1984

FATEHLƏR

Ayla ulduzla ucaldıb göyə Türk bayrağını,
Türkü üç qitəyə hakim yaradan kimlərdi?!

Qoruyub yırtıcılardan ulu Türk torpağını,
Adlayan türlü dənizdən, qaradan kimlərdi?!

Dağları, daşları şimşəkli qılınclarla biçən,
Qəlbi İstanbulun eşqiylə dolan fatehlər!

Ömrü cənglərlə yürüşlərlə savaşlarla keçən,
At belində, çadır altında olan fatehlər!

Yağılarla əbədi üz-üzədir Türk oğlu,
Yerüzündə özəli möcüzədir Türk oğlu!

1989

SAHİBİYİK

Aylı, ulduzlu ulus bayrağının
Nuruna göz dikənin qalibiyik!
Biz bu varlıqda bu Türk torpağının
Əzəli və əbədi sahibiyik!

1989

ÖLKƏMİ VAR?!

Gözəl İstanbulun gözəl qəmi var,
Öylə bir qəm ki türlü məhrəmi var.

Hər zaman üz tutar sevənlər ona,
Hər kəsin sanki onda həmdəmi var.

Dərdinə məlhəm istəyən gəlsin,
Güllərində şəfəqli məlhəmi var.

Seyr edənlər bilər ki, aləmdə
Bir şəhərdir ki minbir aləmi var.

Ona heyran olan dənizlərinin
Sularında bölük-bölük gəmi var.

O, bir əfsanədir bu gerçəkdə,
Bir mələkdir, ilahi görkəmi var.

Türklərin ölkəsində ölkədir o,
Ondan üstün olan bir ölkəmi var?!

İstanbul, 1989

TÜRKLƏR

Türküyədir ruhumuzu dindirən,
Dilimizdə bir yabançı şərqi yox!
Bü türklərdir o türklərə səs verən,
O türklərin bu türklərdən fərqi yox!

İstanbul, 1989

DÜŞMANLARIMIZ

Düşmanlarımız bizlərə Türk söyləmiş ancaq,
Türkəm deməyən yurddaşımız düşmanımızdır!
Düşməz yerə Türkün göyə yüksəltdiyi sancaq,
Türkün göyə yüksəltdiyi sancaq şanımızdır!

* * *

Türk sözündən niyə ürkürsən adın Türkdür, Türk!
Türkə ürkmək yaramaz, arkadaş, ürkməkdən ürk!
Türkün imanı böyük yurdu böyük, andı böyük,
Kəbəmiz Türkiyədir, yalvacımızdır Atatürk!..

Ankara, 1986

GÖZƏL İSTANBULDA

Gördüm gözəl İstanbulu, cənnətdir o cənnət,
Cənnətdə də olmaz sanıram ondakı ziynət.

Gəzdim gözəl İstanbulu, başdan-başa gəzdim,
Üç ay sarılıb boynuna, hər səmtini sezdim.

Dünya geniş, əlbəttə, gözəl bəldəsi çoxdur,
Bundan gözəli yerdə də yox, göydə də yoxdur.

Duydum canım İstanbulu, həp varlığı Türkdür,
Bir ölkə sığar qoynuna, olduqca böyükdür!

İstanbula daldım, Bakıma bənzəri çoxdur,
Orda Bakımın sözləri çox, izləri çoxdur.

Sandım Bakım İstanbula köçmüş, nə səadət!
Üzlərdə o şəfqət, o nəzakət, o məhəbbət!

Baxdım adımız bir, soyumuz bir, dilimiz bir,
Gördüm odumuz bir, suyumuz bir, elimiz bir.

İstanbulun övladları yurddaşlarımızdır,
Bir türkü deyən sevgili türkdaşlarımızdır!

Var ol dedim İstanbula həsrət canımızdan,
Candan ona bağlı can Azərbaycanımızdan!

İstanbul, 1984

DƏNİZ ŞAİRİ

Kimdir o igid yolçu ki şimşək kimi çaxmış,
Al yelkəninin üstünə Ay-yıldızı taxmış?!
Türk duyğulu türkdaşlarımızdan biridir o,
Türkün dəniz ilhamlı dəniz şairidir o!

İstanbul, 1989

SEVMƏKMİ GÖZƏL, YOXSA SEVİLMƏKMİ GÖZƏLDİR?!

QURBAN VERƏRDİM

Mənə bircə kəlmə can söyləsəydin,
O bircə kəlmənə min can verərdim,
Ömrümü, günümü dərd eyləsəydin,
Ömrümü, günümü dərman verərdim.

Bezdirdim qəlbini sədaqətimlə,
Qaldım həsrətimlə, müsibətimlə,
Könlümü alsaydın, bu zülmətimlə
Sənə bir işıqlı cahan verərdim.

O günlər necə də mənə haydılar,
Könlümə, gözümə şəfəq yaydılar,
Gedən günlərimi qaytaraydılar,
Gələn günlərimi qurban verərdim.

1975

AYRILDIQ

Öylə ayrıldıq ki, sənlə, ey gül,
Bir də ayrılıqdan ayrı düşmərik!
Ah, bu son hicranın vüsalı müşkül,
Dağ dağa rast gələr, biz görüşmərik!..

1975

KÖNLÜMÜN TÜRKÜSÜ

Könlümün türküsü sənsiz olmaz,
Gülşənimsən, çəmənimsən, gözəlim!

Gözlərin nur dolu nərgizlərdir,
Əlləri yasəmənimsən, gözəlim!

Yasaq olmuş sənə dərdsiz nəşə,
Nəşəsiz dərdə qənimsən, gözəlim!

Ruhum ömrüm boyu səndən bezməz,
Sən ki mərmərbədənimsən gözəlim!

Qəlbimiz bir vurur aləmdə bizim,
Mən sənin, sənsə mənimsən, gözəlim!

1987

UZAQLARDA

Uçar uçar uca qartal dumanlı dağlarda,
Görən o qartalı olmaz çiçəkli bağlarda,
Şəfəqli pəncərələrdə, yaşıl budaqlarda,
Qanad çalar dəli könlüm kimi uzaqlarda.

1985

NƏ BİR TƏSƏLLİ

Könlümdə, gözümdə bir iztirab var,
Nə məndə dözüm var, nə canda tab var,
Fikirdən qamətim suala dönmüş,
Nə bir təsəlli var, nə bir cavab var.

1986

CEYRAN

Ey gözəl ceyran gözəl şairlərin seyranısan,
Sən ki ceyran gözlərinlə qızların ceyranısan,
Kim görüb candan könül verməz sənə, mümkün deyil,
El sənin heyranın olmuş, sən kimin heyranısan?!

1973

AÇILDI

Bahar gəldi, aləmə nur saçıldı,
Dağın-daşın rəngi-ruhu açıldı

1966

UZAQ DÜŞDÜ

Məndən, ah, sevgilim uzaq düşdü,
Bağrıma qar, qırov, sazaq düşdü.

Köksümə dağ çəkildi, dağ düşdü,
Ayrılıqdan könül qaçaq düşdü.

Başıma sırma-sırma ağ düşdü,
Yaşamaq ömrümə yasaq düşdü.

1987

GÖZƏL XATİRƏLƏR

Bir günəşdir o gözəl xatirələr dunyama,
Ah, nələr söyləyərəm, hisslərimi dindirələr.
O gözəl xatirələr indi girir röyama,
Dadlı röyalara bənzər o gözəl xatirələr.

1980